# Kəmalə xanımla görüş

**Paytaxtın Yasamal rayonundakı A.Ağaverdiyev adına tam orta məktəbdə sevimli şairəmiz Kamalə Abiyevanın yaradıcılığına həsr olunmuş tədbir keçirildi.-Məktəbin direktor müavini Naibə Rüstəmovanın təşkilatçılığı ilə hazırlanmış tədbirdə şagirdlərlə bərabər,müəllimlərin də çıxışı maraqla qarşılandı,tədbir iştirakçılarında xoş ovqat yaratdı.Əslində respublikamızın istənilən yerində, hər bir məktəbində belə görüşlər arzuolunandır.**



Tədbirdə həm də Kamalə xanımın "Tapmaca"adlı yeni kitabının təqdimatı oldu.Hamımıza ən kövrək duyğular yaşadan "Məktəb illəri"-mizi xatırladan müəlliflə görüşmək,şeirlərini eşitmək, onunla birlikdə olmaq bütün iştirakçıların arzusu idi. Məktəbin direktoru Kərim Abidi,müəllim və şagirdlər Kamalə xanımın yaradıcılığı və əmək fəaliyyətindən sevgiylə danışdılar.Tədbirdə dəyərli söz adamları yazıçı-tərcüməçi Kamran Nəzirli, yazıçı-dramaturq Firuz Mustafa, Əməkdar jurnalist ,polkovnik-leytenant İbrahim Rüstəmli, jurnalist Nəcibə Bağırzadə ,Yasamal rayon təhsil işçiləri Hİ-nın sədri Elçin Həmidov ,Gülşən Rafiqqızı və b. iştirak edirdi. Kamran Nəzirli, Firuz Mustafa Kamalə xanımın yaradıcılığından söz açmaqla bərabər, tədbirdə iştirak edən Aysel Əlizadənin istedadı,imzası ilə seçildiyini xüsusi vurğuladılar.



Respublikamızın sevilən sənətkarları İlqar Muradovun və Lalə xanımın iştirakı tədbirə xüsusi gözəllik qatdı.Əməkdar incəsənət xadimi sevimli bəstəkarımız Aygün Səmədzadənin bəstələdiyi dinləməkdən doymadığımız "Bu dünyanı nağıl bilək","Məktəb illəri" mahnılarını bir daha gözəl müğənnilərimizin ifasında canlı eşitmək hər birimizə unudulmaz anlar yaşatdı.

Görüşün sonunda tədbir iştirakçılarına müəllifin "Tapmaca"kitabı, eləcə də çoxumuzun poetik dünyasının formalaşmasında xüsusi rolu olan 1981-1983-cü illərdə Respublika gənc yazarların ədəbi birliyinin rəhbəri olmuş istedadlı şairimiz V.İbrahimin 70 illiyində öz şəxsi təşəbbüsü ilə çap etdiyi ,redaktoru olduğu "Mən varam"kitabları iştirakçılara təqdim olundu.

Nə yaxşı ki,Firuz Mustafanın dediyi kimi "texniki elmlər sahəsində çalışanlar daha yaxşı, daha gözəl bədii əsərlər yaradırlar. Azərbaycanda da texniki və humanitar elmləri bir-birinə "dost" edən, onları eyni"qütb"də birləşdirməyi ,doğmalaşdırmağı bacaran Kamalə Abiyeva kimi"sülhməramlı" fizik-şairəmiz var.

Tədbirdə həmçinin müasir ədəbi nəslin cavan nümayəndələri də iştirak edirdi.

***

**Sevimli şairəmizlə daha bir maraqlı görüş Xətai rayonunun 191 nömrəli tam orta məktəbində keçirildi.Görüşü C.Cabbarlı və S.Vurğun mükafatları laureatı Mirəhməd Əskərov təşkil etmişdi. Məktəbin direktoru Rita xanım qonaqları, görüş iştirakçılarını salamladıqdan sonra , ədəbiyyat müəllimi Nabat Zeynalova şairənin yaradıcılığından danışdı. Mirəhməd müəllimin yaratdığı "VURĞUN"poeziya teatrının üzvləri Nigar Adıgözəlova, Kənan Bəhri Hüseyn, Aytac və Aysun Dadaşovalar,Ayxan Əhmədov, 64 nömrəli məktəbin şagirdləri Aysu və Asim Məmmədovlar və başqalarının çıxışları bir-birindən maraqlı idi. Tədbirdə gözəl şairimiz Maarif Soltan və istedadlı yazar Aysel Əlizadə də iştirak edirdi.Yəqin ki bu görüşün şirin xatirəsi müəllim və şagirdlərin yaddaşında uzun müddət yaşayacaq.**

**RƏHMAN ORXAN**